


## GÜLDANƏ MEHDİYEVA

**Azərbaycan Respublikasının
Təhsil İnstitutunun
Elmi Pedaqoji Tədqiqatlar Mərkəzinin
Təşkilati şöbəsinin baş mütəxəssisi**


# KİTAB HƏYATIN ƏN UZAQ VƏ QARANLIQ YOLLARINDA İNSANA İŞIQ BƏXŞ EDƏN ƏFSANƏVİ ÇIRAQDIR

**Dünyada nə qədər kitab var belə
Çalışıb, əlləşib gətirdim ələ.
Oxudum, oxudum, sonra da vardım,
Hər gizli xəzinədən bir dürr çıxardım.**

***Nizami Gəncəvi***


**Xülasə:** Məqalədə eramızdan əvvəlki minilliklərdən mövcud olan kitabların təkamül prosesindən bəhs olunur.



**Açar sözlər:** yazı, əlifba, kağız, çap dəzgahı, kitab necə yaranıb, kitabxanaların yaranması və s.


Kitab bilik xəzinəsi, insanın ruhu üçün məlhəm və müdriklik mənbəyidir. Kitablar ən qədim dövrlərdən bəri var olan və həyatımızın hər sahəsində ehtiyac duyduğumuz əsərlərdir. Eramızdan əvvəlki minilliklərdən mövcud olan kitabların materialı dəyişsə də məqsədi, amalı eyni olmuşdur. Daşdan, dəridən, taxtadan, papirus kağızlarından, müasir kağızlardan yaradılan kitablar böyük təkamül prosesindən keçmişdir. Əziz oxucular indi isə aşağıdakı suallara cavab tapaq:

**yazı**

**əlifba**

**kağıza qədər insanlar nədən istifadə edib?**

**çap dəzgahı nə vaxt və harada yaranıb?**

**kitab necə yaranıb?**

**kitabxanalar nə vaxt yaranıb?**

**Yazı** – daşın, sümüyün, perqamentin, kağızın üstündə yaşayır. Yazının yaranmasının çox qədim tarixi yazı nümunələri 7000 ilə yaxın tarixə malikdir və o vaxtdan bu günə uzun inkişaf yolu keçərək bugünkü formaya gəlib çatmışdır.

Yazı – nitqi müəyyən dövrdə təsbit (qrafik) ünsürlərin köməyilə müxtəlif məsafələrə çatdırmağa imkan verən işarə sistemidir.

Yazı görmə vasitəsilə dərk edilib, fikrin ifadəsində əsas ünsiyyət vasitəsinə köməkçi olan işarələr sistemidir.

Son tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, yazının dörd əsas növü vardır:

***1. piktoqrafik, yaxud şəkli yazı;***

***2. ideoqrafik, yaxud fikri yazı;***

***3. sillabioqrafik, yaxud heca yazısı;***

***4. fonoqrafik, yaxud səs yazısı***

Yazının bu növlərindən hər biri bu və ya başqa xüsusiyyətlərinə görə bir-birindən əsaslı surətdə fərqlənir.

**Şəkli (piktoqrafik yazı)** - Bu və ya digər məlumatın, yaxud hadisənin şəkillər vasitəsilə

ifadə edildiyi yazıya piktoqrafik, yaxud şəkli yazı deyilir. Yazının bu ilk növü çox qədim tarixə malikdir. Qədim insanlar piktoqramları məbədlərin divarlarında, ağac, buynuz, daş və s. üzərində cızmışlar. Qobustan qaya təsvirlərindən bir çoxu piktoqrafik (fikri) yazıda hər bir işarə bütöv bir sözü, yaxud sözün mənalı hissəsini bildirir.

**Heroqliflər** – qədim zamanlarda, xüsusilə Misirdə istifadə olunan, əşyaları, insanları və anlayışları təsvir edən piktoqrammalardan (şəkil-işarələrdən) ibarət qədim yazı sistemidir. Misirin işğallara məruz qalması Misir yazılarının unudulmasına səbəb oldu. Nəhayət 1822- ci ildə fransız alimi Fransua Şampalyon "Rozetta" daşına əsasən Misir heroqriflərinin sirrini aça bildi. Beləliklə, misirşünaslıq elmi sürətlə inkişaf etməyə başladı.

**İdeoqrafik** – Çin yazısı bizim eradan çox-çox əvvəl meydana çıxmışdır. Çin yazısı mənşəyinə görə piktoqramlardan törəmişdir. Məlum olduğu üzrə, ideoqramlar bəzən şəkli yazıdan yarandığı izini saxlayır. Çin yazısındakı bir sıra heroqliflərdə də belə izlər özünü aydın formada göstərir. Müasir qrammatik və riyazi yazıda istifadə olunan qoşa nöqtə, mötərizə, tire və s. bir növ ideoqrafik yazı qalıqlarıdır.

**Qrafik yazı** şəkildən əlifbaya doğru inkişaf yolu keçərək ən mütərəqqi yazı növü olan fonoqrafik yazının yaranması ilə nəticələndi. Səs yazısı, əsasən, ideoqrafik yazılardan əmələ gəlmişdir. Qədim dövrlərdə ideoqrafik yazı sistemindən Misirdə, Şumerdə, Çində, Meksikada və başqa yerlərdə istifadə etmişlər. Ən qədim ideoqrafik yazılardan biri Misir yazısıdır. E.ə. IV əsrin III minilliyində meydana gəldi. Misir yazıları heroqliflər, müqəddəs işarələr adlanırdı.

**Sillabioqrafik** – yazı (heca yazısı) hər bir işarənin bir hecanı (samit+sait) təmsil etdiyi yazı sistemidir. Bu sistemdə hər heca ayrıca sillaboqram hesab olunur.

**Fonoqrafik-yazı** (hərfi yazı) dilin fonemlərini (səslərini) hərflər vasitəsilə əks etdirən ən mükəmməl yazı sistemidir.

***Qədim yazı materiallarının əsas növləri:***

**Daş və Sümük:** Qədim dövrlərdə qayalara və heyvan sümüklərinə yazılan yazılardı.

**Ağac qabığı:** Bir çox xalqlar tərəfindən geniş istifadə olunmuşdur.

**Papirus:** Misirdə Nil çayı kənarında bitən bitkidən hazırlanırdı. Uzun lentlər şəklində olurdu. (e.ə.IV-III minilliklərdə) – Zəmanəmizə qədər gəlib çatan Qədim Şərq, Roma və Yunan xalqlarının yaratdığı böyük əsərləri, Homerin məşhur poemalarını misal göstərə bilərik.

**Gil lövhələr:** Mesopotamiyada yazı üçün istifadə edilən ucu biz alətlərlə işarələr qazınan xüsusi gil parçaları. (ən qədim, ilkin kitabların 5min ildən çox yaşı var.)

**Perqament:** Heyvan dərisindən (qoyun, keçi, dana) hazırlanan, papirusdan daha davamlı yazı materialı. (e.ə.II əsrdə. Rəvayətə görə Şərqin ən böyük abidələrindən olan "Avesta" 12 min inək dərisində yazılmışdır.)

Bəli, Azərbaycanda tarixin müxtəlif dövrlərində fikri ifadə etmək üçün müxtəlif yazı materiallarından istifadə olunmuşdur. Məsələn, qədim türklər Orxon-Yenisey əlifbası ilə iri daşlar üzərində öz qan yaddaşlarını həkk edirdilər. Cənubi Azərbaycanda tapılmış mixi yazılı gil lövhələr Miladdan öncə bu ərazidə gil kitabların olmasından soraq verir. Dərbənd, Mingəçevir, Xocalı və s. bölgələrdə də mixi və alban yazılı daş və gil lövhələr tapılmışdır.

Orta əsrlərdə Azərbaycan sənətkarları-memarlar və rəssamlar hökmdar sarayları, məscid və məqbərələrin inşası zamanı daş lövhələr üzərində müəyyən yazılar həkk edirdilər.

XII əsr ərəb coğrafiyaşünas səyyahı əl-Əndəlusi yazırdı: "Xəzər dənizi sahillərində tərkibində qızıl olan xeyli daş vardır. Yerli əhali onların üstündə incə xətt nümayiş etdirir. Bu daşlardan birinin üzərində Məhəmmədin və Əlinin kəlamları ən gözəl xətlə yazılmışdır".

"Əlifba" sözü ərəb əlifbasındakı ilk iki hərfin (əlif, bey) adını bildirir. Bir çox başqa dillərdə də belədir: rus dilində "azbuka" kiril əlifbasının ilk iki hərfini (az, bukı), bir sıra Avropa dillərində "alfabet" yunan əlifbasının ilk iki hərfini (alfa, beta) bildirir.

İlk əlifba miladdan əvvəl (e.ə.) II minilliyin ortalarında, təxminən e.ə. 1850-1700-cü illərdə Sunay yarımadasında Qərbi Semit (Kənani) işçilər tərəfindən Misir heroqlifləri əsasında yaradılmışdır. Bu yazı sistemi Proto-Sinay yazısı kimi tanınır və sonradan Finikiya əlifbasının formalaşmasına zəmin yaratmışdır. Bu samitlərdən ibarət (abjad) yazı sistemi idi. Daha sonrakı dövrlərdə, xüsusilə e.ə. XI-XII əsrdə yaranan Yunan əlifbası isə saitləri özündə birləşdirən ilk əsil əlifba hesab olunur. Hazırkı əlifbanın çoxunun (yunan, latın, ərəb) kökü buraya dayanır.

Yunan hərflərindən çox zaman riyazi simvollar kimi istifadə olunur. Yunan əlifbasının bu qolu əsasında etrus əlifbası əmələ gəlmişdir. Etruslar İtaliyanın qədim mədəni xalqı idi. Etruslar latınların da inkişafına böyük təsir etmişlər. Etrus əlifbası bizim e.ə.VIII əsrdə meydana çıxmışdır. Etrus əlifbasının təsirindən latın əlifbası meydana çıxmışdır. Latın tayfaları mərkəzi İtali-

yanın qərbində yaşayırdılar. Onların yayıldıqları sahə Latsium adlanırdı. Latsiumun sakinləri və dilləri latın adlanırdı.

Türk xalqlarının qədim əlifbası run əlifbasıdır. Run və oqamik yazılarından bir sıra alman xalqları, o cümlədən anqlosakslar və vikinqlər istifadə etmişlər.

Türk run yazıları ilə daş üzərində yerinə yetirilmiş Orxon-Yenisey abidələrindən ən qədimi Ongin abidəsi sayılır. Tədqiqatçılar bu abidənin ya 692-ci ya da 689-cu ildə qoyulması fikrinə üstünlük verirlər.

Azərbaycan ərazisində daha qədim tarixə malik əlifbanın mövcudluğu elmdə təsdiq olunmuş faktdır. Q. Voroşil erkən orta əsr mənbələrində bizim eranın 6-cı əsrinin əvvəllərində aran (Azərbaycan) yepiskopu Kardastın Şimali Azərbaycan və Cənubi-qərbi Dağıstan hunları üçün türk yazısını yaratmasının qeyd olunmasını göstərir. Bu fakt A. M. Şerbakın və A. N. Kononovun əsərlərində də səslənmişdir.

1970-ci ildə Dağıstan ərazisində üstü yazılı yastı daş tapılmışdır. Daşın hər iki tərəfində yazılar vardır. Bu yazılar əlifba hərflərinin işarələri şəklindədir. Eramızın III–VII əsrlərinə aid edilən bu yazılı abidə üzərində Azərbaycanda istifadə olunmuş əlifbanın 44 işarəsi həkk olunmuşdur. Qeyd etmək lazımdır ki, bu işarələr 1948–1952-ci illərdə Mingəçevir su-elektrik stansiyasının tikintisində torpaq işlərinin görülməsi zamanı tapılmış, eramızın V–VII əsrlərinə aid edilən səkkiz epiqrafik abidədəki işarələrlə oxşardır. Bu da Azərbaycan və indiki Dağıstan ərazilərində hələ eramızın V əsrində istifadə olunmuş qədim əlifba haqqındakı faktların doğruluğunu bir daha təsdiq edir. Qədim run türk əlifbasını latın, Azərbaycan ərazisindəki alban əlifbasını ərəb əlifbası sıxışdırıb istifadədən çıxarmışdır. Hazırda dünyada latın, slavyan və ərəb əsaslı əlifbalar geniş yayılmışdır.

**1. Ərəb Qrafikası (VIII-XX əsrin əvvəli):** Ərəb əlifbasının tətbiqi İslamın yayılması ilə əlaqədar idi. Bu əlifba uzun müddət istifadə olunsa da, Azərbaycan dilinin səs tərkibini tam əks etdirmirdi, çünki ərəb qrafikasında bəzi səslərin yazılması çətin idi.

**2. Latın Qrafikası (1929-1940):** 1929-cu ildə latın əsaslı yeni əlifba qəbul olundu. Bu keçid dilin fonetik xüsusiyyətlərini daha dəqiq əks etdirməyi hədəflədi. Yenilik xalq arasında sürətlə yayıldı və maariflənməyə mühüm təsir göstərdi.

**3. Kiril Qrafikası (1940-1991):** 1940-cı illərdə sovet hakimiyyətinin təsiri ilə kiril qrafikasına keçid edildi. Bu dəyişiklik milli yazı ənənəsinə müdaxilə kimi qəbul olunsa da uzun müddət istifadədə qaldı və nəsillərin formalaşmasında rol oynadı.

**4. Latın Əlifbasına Yenidən Keçid (1991-bugünə):** Müstəqillik əldə etdikdən sonra Azərbaycanın milli kimliyinin bir hissəsi olaraq latın əsaslı əlifbaya qayıdış baş verdi. 1992-ci ildə qəbul edilən müasir Azərbaycan əlifbası 32 hərfdən ibarətdir və dilimizin bütün səslərini dəqiq əks etdirir.

Azərbaycan Prezidenti Heydər Əliyev 2001-ci il avqustun 9-da avqustun 1-ni Azərbaycan Respublikasında Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd olunması haqqında fərman imzaladı.

Ümumiyyətlə, yazının yaranması kitabın təşəkkül tapmasına, formalaşmasına, inkişaf etməsinə təsir edən ilkin şərtdir. Kitabın yaranıb inkişaf etməsində ikinci amil yazı materiallarının meydana gəlməsidir.

Minilliklər ərzində elmin beşiyi sayılan Misirdə, Yunanıstanda və Romada papirus əsas yazı materialı olmuş, kitab və yazı mədəniyyətinin inkişafına xidmət etmişdir. Bir çox qədim alim və şairlərin əsərləri məhz papirus kitablar şəklində gələcək nəsillərə ötürülmüşdür.

Bəşəriyyətin belə qiymətli tapıntıtılarından biri də kağızdır. Kağızın mövcudluğu haqqında ilk məlumat e.ə.12-ci ilə təsadüf edir. Çinli Tsay Lun 105-ci ildə kağız istehsalını təkmilləşdirir. Lakin çinlilər uzun müddət VIII əsrin ortalarına kimi kağız istehsalının sirrini dünya ölkələrindən gizli saxladı.

751-ci ildə Bağdad xəlifəsinin Səmərqənddəki nümayəndəsi hərbi səfər zamanı Çin sərhəddində 2 nəfər kağız mütəxəssisini əsir tutur, onların köməyilə Səmərqənddə kağız istehsalına başlayırlar. 793-cü ildə Bağdadda, 900-cü ildə Misirdə kağız istehsal edilir. X əsrdə Avropa ölkələrinə, o cümlədən Rusiyaya keçir. XX əsrin 50- ci illərində sintetik kağız istehsalı başlayır. Bu adi kağızdan min dəfə möhkəm, şəffaf və elastik olub, möhkəmliyinə və daha çox yaşamasına ehtiyac duyulan nəşrlər, coğrafi xəritələr, incəsənətə aid monoqrafiyalar və s. üçün əlverişlidir.

Kağızın meydana gəlməsi əlyazma kitabların inkişafına səbəb oldu. Əlyazma kitablarını gözəl yazı xəttinə malik sənətkarlar, xəttatlar xüsusi sifarişlə köçürürdülər. Təkcə XII əsrdə Azərbaycan şair və təbiblərinin yüz cildlərlə əlyazma əsərləri yaranmışdır. Qədim Şərqin, o cümlədən Azərbaycan əlyazma kitabı özünün tərtibatına, yaraşıqlı illüstrasiyaslarına görə xüsusilə diqqəti cəlb edir.

Təxmini hesablamalara görə, hazırda dünyanın müxtəlif əlyazma xəzinələrində 30-40 min Azərbaycan kitabı saxlanılmaqdadır. 1928-ci ildə respublikamızda Azərbaycan və Şərq ölkələrinə aid qədim və nadir əlyazmaları saxlanılan və tətbiq edilən elmi mərkəz yaradılmış, 1950-ci ildən isə EA-nın Əlyazmalar İnstitutu kimi fəaliyyət göstərir.

Cəmiyyət inkişaf edib formalaşdıqca kitab istehsalını sürətləndirmək üçün uzun illər axtarış aparmışlar. Bunun nəticəsində VIII əsrin ilk onilliklərində Koreyada (704-751), Çində (713-741), Yaponiyada (765-770) ksiloqrafiya üsulu ilə çap işi, çinli Bi Şen tərəfindən mütəhərrik çap literinin hazırlanması (1041-1048) kitab istehsalının ilk müvəffəqiyyətli axtarışına səbəb oldu.

Avropada kitab çap üsulunun ilk yaradıcısı (1440) alman ixtiraçısı İohan Qutenberq olmuşdur. Kitab çapı texnologiyası əsrdən-əsrə təkmilləşərək yeni kəşflərlə zənginləşmişdir. XVIII əsrin 90-cı illərində almaniyalı A. Zenefelder litoqrafiyanı (daşbasma üsulu), 1867-ci ildə isə rus P. P. Knyaginski Avtomat özüyığan maşın ixtira etdi.

Kitabxanaların tarixi çox qədim zamanlara gedib çıxır və yazının icadından qısa müddət sonra yaranmışdır. İnsanlar yazılı mətnləri qorumaq və gələcək nəsillərə ötürmək üçün məkanlar yaratmağa ehtiyac duyduqda kitabxanalar formalaşmağa başladı. Kitabxanalar sivilizasiyaların inkişafında və biliklərin yayılmasında həlledici rol oynamışdır. Kitabxanaların tarixi sənədlər kolleksiyalarını təşkil etmək üçün ilk cəhdlərdən başlayır.

İlk kitabxanalar qədim sivilizasiyalarda meydana gəldi. Bu kitabxanalar daha çox dini və inzibati məqsədlər üçün istifadə olunurdu və məbədlərdə, saraylarda saxlanılan yazılı materiallardan ibarət idi.. İlk kitabxanalar qədim Şumerlərdə yaranıb. Bu haqda aparılan araşdırmalar və qazıntılardan əldə olunan bilgilərə əsasən kitabxanaların tarixi e.ə 2400-cü illərə qədər uzanır. Ən qədim kitabxana hesab olunan Selsus kitabxanası Romada yerləşir. Kitabxanada 12 min bağlama saxlanılır, həm də məqbərə funksiyasını daşıyır. Tez oyananları salamlamaq üçün Selsus kitabxanasının fasadı yüksələn günəşə doğru yönəldilib. Sütunların taxçalarında müdrüklük (Sophia), bilik (Episteme), kəşfiyyat (Ennoia) və şücaəti (Arete) simvollaşdıran heykəllər yerləşir. Onlar Selsus kitabxanasının əsas üstünlüklərindən biridir. Kitabxana Avstriya Arxeoloji İnstitutunun köməyi ilə bərpa edilib və heykəllərin orijinalları 1910-cu ildə Vyanada Efesa Muzeyində yerləşdirilib.

Ən qədim kitabxanlardan biri Assuriya hökmdarı Aşşurbanipal tərəfindən e.ə 625-ci ildə qurulan Nineva kitabxanasıdır. Qazıntılar zamanı bu kitabxanadan tapılan 20 minə yaxın gil lövhələr Britaniya muzeyində saxlanılır. Misir hökmdarı II Ptolomey tərəfindən e.ə III əsrdə qurulan İsgəndəriyyə kitabxanası dövrünün ən nəhəng kitabxanası hesab olunurdu. Burada 700-800 min papirus lövhə vardı. E.ə 47-ci ildə Sezarın İsgəndəriyyəyə hücumu zamanı kitabxanaya ciddi zərər dəyib. 391-ci ildə isə patriarx Teofilos tərəfindən müəyyən hissəsi dağıdılıb. 642-ci ildə şəhərin ərəblər tərəfindən tutulması zamanı isə İsgəndəriyyə kitabxansı tamamilə yandırılıb.

E.ə 165 ci ildə qurulan Perqamon kitabxanası, b.e-nın 355-ci ilində I Konstantin tərəfindən Konstantinapolda (indiki İstanbul) qurulmuş imperatorluq kitabxanaları dövrünün nüfuzlu kitabxanaları sırasında idi. Orta əsrlər də isə, monastırların nəzdində 1000-ə yaxın əlyazmaların saxlanıldığı xırda kitabxanalar yaranır.

Abbasilər dövründə (830-cu il) Bağdadda «Beytül-Hikmət» (Hikmət evi) adlı kitabxanada bir milyondan çox kitab mövcud idi. Bu kitabxana qədim yunan, hind və fars əsərlərinin saxlandığı, tərcümə edildiyi və tədqiq edildiyi bir mərkəz olmuşdur. XII əsrin məşhur saray kitabxanalarından biri də Qəzvin şəhərinin şimalında yerləşən Ələmüt qalasındakı "Seyyidanə" kitabxanası idi. XIII-XIV əsrlərdə yaradılmış saray kitabxanaları içərisində "Sultaniyyə" kitabxanası da mühüm yer tuturdu.

Kitabxananın XVIII əsrə qədər fəaliyyət göstərməsi ehtimalı vardır. XV-XVIII əsrlərdə kitabxanalar əsasən saraylarda, məscidlərdə və mədrəsələrdə təşkil edilirdi. XVII-XVIII əsrlərdə hələ XVI əsrin əvvəllərindən fəaliyyətə başlayan Şeyx Səfi məqbərəsinin kitabxanası öz fəaliyyətini davam etdirirdi. Böyük kitabxanalardan biri də Sultan Yaqub tərəfindən təşkil edilmiş kitabxana idi. Kitabxananın fondunda xeyli nadir kitablar toplanmışdı. Bu kitabxanada kitabxanaçılarla yanaşı, alimlər, rəssamlar, nəqqaşlar və b. çalışırdı.

Şah İsmayıl kitab yaymaq, kitab yaratmaq və kitabxanaların təşkil edilməsi işinə xüsusi diqqət yetirirdi. Sarayda kitabxana üçün ən yaxşı otaqlar ayırmışdı. Nizaminin, Firdovsinin, Əssar Təbrizinin, Sədinin əsərləri saray kitabxanasının rəflərini bəzəyirdi. Öz dövrünün zəngin kitabxanasında demək olar ki, Şərqin ən nadir əsərlərinə rast gəlmək olardı. Zaman keçdikcə Şah İsmayılın şəxsi təşəbbüsü sayəsində bu kita-

bxana dövlət kitabxanası səviyyəsinə yüksəlmiş, kitabxana haqqında ilk dövlət fərmanı da 1522-ci ildə imzalanmışdır.

Azərbaycanda ilk kitabxana və elmi mərkəz 13-cü əsrdə Nəsirəddin Tusinin qurduğu Marağa rəsədxanasının kitabxanası (400 mindən çox kitab) məşhurdur. XI əsrdə filosof Əbülhəsən Bəhmənyarın şəxsi kitabxanası, 16-cı əsrdə Şah İsmayıl Xətainin Təbriz saray kitabxanası sayılır. Bakıda ilk kütləvi kitabxana 1894-cü ildə N. Nərimanovun "Afina" kitabxanası olmuşdur.

IX-X əsrlərdə Azərbaycanın Bərdə, Bakı, Gəncə, Şamaxı, Şabran, Beyləqan, Naxçıvan, Təbriz, Ərdəbil, Marağa və Urmiya kimi şəhərlərində mədrəsə və məscid kitabxanalarının olması və bu kitabxanalarda zəngin əlyazma kitablarının toplanması haqqında xeyli tarixi faktlar mövcuddur. Tarixi mənbələrdə göstərilir ki, istər Nizami Gəncəvi, istərsə də Xaqani Şirvani böyük kitab həvəskarı olmuş, özlərinin zəngin kitabxanalarını təşkil etmişdilər.

XIX əsrin I yarısında Azərbaycanda kitabxana işi bilavasitə məktəb, mədrəsə şəbəkələri ilə bağlı olmuşdur. XIX əsrin 50-ci illərindən başlayaraq Azərbaycanın böyük şəhərlərində və iri yaşayış məntəqələrində ilk xalq kitabxanaları və qiraətxanaları meydana gəlməyə başlayır.

Azərbaycanda yaranan ilk xalq kitabxanalarından biri 1850-ci illərin axırlarında Şamaxı şəhərində yaranmışdı. XIX əsrin ikinci yarısında isə Bakı şəhəri ilə yanaşı, Azərbaycanın digər regionlarında da xalq üçün kitabxanalar açılmağa başlamışdı. Belə kitabxanalar 1859-cu ildə Şamaxıda və Şuşada, 1868-ci ildə Gəncədə, 1880-ci illərdə isə Bakıda, Qubada, Salyanda, Lənkəranda və Naxçıvanda təşkil edilmişdir. Naxçıvanda kitabxana-qiraətxananın açılmasında görkəmli maarifçilərdən M.T.Sidqinin, C.Məmmədquluzadənin, Q.A.Şərifovun, A.M.Əkbərovun xüsusi xidmətləri olmuşdur. 1897-ci ildə artıq Bakı şəhərində 8 belə kitabxana fəaliyyət göstərirdi. Bunlardan əlavə, Bakıda olan hər bir şəhər məktəbinin yanında da kitabxanalar təşkil edilmişdi.

Dövlət Statistika Komitəsinin son məlumatlarına görə, Azərbaycanda 27,7 milyon kitabxana fondu olan 2913 kütləvi kitabxana fəaliyyət göstərir. Bu kitabxanalar ölkə əhalisinə xidmət edir və kitabxana fondunun əhəmiyyətli bir hissəsini təşkil edir.

M.F.Axundov adına Milli kitabxanası (1923-cü ildə açılıb) - Azərbaycanda kitabxana işi sahəsində dövlət siyasətini həyata keçirən, milli nəşrləri, xarici ölkələrdə Azərbaycan haqqında nəşr olunmuş çap materiallarını və Azərbaycan müəlliflərinin əsərlərini, dünya əhəmiyyətli nəşrləri, o cümlədən xarici dillərdə çap olunmuş məlumat daşıyıcılarını toplayıb mühafizə edən kitabxana və dövlət kitabsaxlayıcısıdır. Milli kitabxanamız – Azərbaycanın ən böyük kitabxanası olmaqla yanaşı, Qafqazda və Avropada ən böyük milli kitabxanalardan biridir.

Kitabxanaların tarixi insan sivilizasiyasının bilik toplamaq və yaymaq arzusunu əks etdirir. Qədim dövrlərdən müasir rəqəmsal dövrə qədər kitabxanalar biliklərin toplanması və ötürülməsi üçün əsas mərkəzlər olmuşdur. Onların rolu və əhəmiyyəti, texnologiyanın inkişafı ilə dəyişsə də, kitabxanalar hələ də mədəniyyət və təhsilin ayrılmaz hissəsi olaraq qalır.

XXI əsrdə rəqəmsallaşma ilə birlikdə kitabxanalar yeni forma aldı. Kitablar və mətnlər elektron resurslar şəklində onlayn mövcuddur və rəqəmsal kitabxanalar geniş yayılmışdır. Bu, informasiyanın sürətli yayılmasını və bilik əldə etməyi daha da əlçatan olmuşdur. Müasir rəqəmsal kitabxanalar, dünyanın istənilən nöqtəsindən milyonlarla mətnə və mənbəyə çıxışı təmin edir. Google Books, Project Gutenberg və Europeana kimi rəqəmsal platformalar milyonlarla kitabı onlayn olaraq oxuculara təqdim edir.

Bəli, ölkəmiz qədim dövrlərdən başlayaraq milli-mənəvi sərvətləri, kitab mədəniyyəti ilə seçilmiş və kitabxanaları ilə tanınmışdır. Gənc nəslin bir insan, bir vətəndaş kimi yetişməsində bütün ağırlıq və məsuliyyətini çiyinlərində daşıyan, zahiri görkəmindən başlamış daxili bütövlüyünədək mənəviyyatı, qəlbi, varlığı könüllərə hərarət, beyinlərə nur paylayan peşə sahibi tək müəllim deyil, həm də kitabxanaçıdır. Kitabsız, kitabxanasız heç bir təhsildən, təlimdən, tərbiyədən danışmaq olmaz. Bu gün milli-mənəvi sərvətlərimizin qorunduğu yer- kitabxanadır. Viktor Hüqonun təbirincə desək: "Zəngin kitabxanası və kitabsevən dostları olan hər kəs xoşbəxtdir".

**Ədəbiyyat**


***1. A. Xələfov. "Azərbaycanda kitabxana işinin təşkili". I hissə. Bakı – 2004.***

***2. A. Xələfov. "Azərbaycanda kitabxana işinin təşkili". II hissə. Bakı – 2007***

***3. A.Xələfov. "Azərbaycanda kitabxana işinin tarixi". III hissə. Bakı – 2010***

***4. P. F. Kazımi. "Türk xalqlarının kitab və kitabxana mədəniyyəti". Bakı – 2012***

***5. N.Xudiyev. "Azərbaycan ədbi dil tarixi". Bakı – 2018***

***6. C.Ağamirov. "Əski Azərbaycan yazısı". (Ərəb əlifbalı Azərbaycan yazısı) Bakı – 2016***

***7. B.V. Allahverdiyev. "Ümumi kitab tarixi". Bakı – 2003***